**UOT 94(479.24)**

**AYSEL ŞAMİLOVA**
*Sumqayıt Dövlət Universiteti*
**aysel.yagubova5@mail.ru**
ORCID ID: 0000-0001-7531-9081

# VƏTƏNDAŞLARIN İCTİMAİ-SİYASİ PROSESLƏRDƏ FƏALLIĞININ ARTMASINDA SEÇKİLƏRİN ƏHƏMİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/106/225-229

*Məqalədə 2016-2020-ci illərdə Azərbaycan Respublikasında ictimai-siyasi proseslərdə fəallıq dərəcəsinin xeyli yüksəlməsi formalarından biri kimi Milli Məclisə 2020-ci il fevralın 9-da keçirilən növbədənkənar seçkilərdə vətəndaşların iştirakı ilə bağlı məsələlərdən bəhs edilir. Azərbaycanda növbədənkənar parlament seçkiləri 2020-ci il fevralın 9-da, ölkənin yuxarıdan aşağıya doğru islahatlar prosesinə cəlb olunduğu, kütləvi kadr dəyişikliklərin olduğu bir vaxtda keçirilmişdir. Seçkilər əksər tarixçi və politoloqların proqnozlaşdırıldığı kimi, sakit şəraitdə, şəffaflıq və demokratiya şəraitində keçmiş və seçici fəallığı kifayət qədər yüksək olmuşdur.*

*Açar sözlər:* ictimai, siyasi, fəallıq, seçkilər, Milli Məclis, növbədənkənar.

***Giriş.*** 2016-2020-ci illərdə Azərbaycan Respublikasında cəmiyyət həyatının bütün sahələrində mühüm uğurlar qazanılmışdır. İctimai-siyasi proseslərdə vətəndaşların iştirakı onların fəallıq dərəcəsinin xeyli artması ilə müşahidə olunmuşdur. Bu iştirakın, dəqiq desək, fəallıq dərəcəsinin artması bir çox parametrlər baxımından müşahidə edilə bilər. Belələrindən biri vətəndaşların ölkədə vaxtaşırı keçirilən seçki kampaniyalarında iştirakı ilə bağlı məsələlərdir. Bunlardan qanunvericilikdə nəzərdə tutulduğu müddətdə keçirilən prezident seçkiləri, Milli Məclisə seçkilər həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda diqqətlə izlənilir. Eyni zamanda yerli idarəçilik orqanı kimi bələdiyyələrə seçkilərdə, habelə Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklr edilməsi barədə keçirilmiş referendumların əhəmiyyətini nəzərdən qaçırmaq olmaz. 2020-ci il fevralın 9-da keçirilən növbədənkənar seçkilər bu mənada xüsusi ilə maraqlı olmuşdur. Yuxarıda qeyd etdiyimiz parametrlər baxımından seçki kampaniyasının gedişində vətəndaşların fəal iştirakı ilə bağlı məslələrin araşdırılması müəyyən elmi əhəmiyyət kəsb edir.

***Seçkilərin elanı.*** 2020-ci il fevralın 9-da keçirilən seçkilər növbədənkənar oldu. Xatırladaq ki, 2019-cu ilin noyabrın sonunda hakim Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi Şurası parlamentin buraxılması təşəbbüsü ilə çıxış etmişdi. Baş nazirin müavini, YAP sədrinin müavini, icra katibi Əli Əhmədov jurnalistlərə açıqlamasında bu addımın səbəbini açıqlayaraq demişdir ki, “dövlət başçısının rəhbərliyi ilə ölkədə bütün sahələrdə islahatlar aparılır və yalnız qanunverici orqan bu prosesdən müəyyən qədər geridə qalır. İslahat konsepsiyasının tam sistemli olması, ölkənin ümumi inkişafına tam cavab verməsi, qarşıya qoyulan bütün məqsədlərə çatması üçün hakimiyyətin hər üç qolunda transformasiyalar aparılmalıdır. Beləliklə, partiya üzvləri belə qənaətə gəlmişlər ki, qanunverici orqan kənarda qalmamalıdır” [5].

Təşəbbüs Milli Məclis üzvlərinin əksəriyyəti tərəfindən dəstəklənmiş, prezidentə müraciət göndərilmiş və dövlət başçısı 2019-cu il dekabrın 5-də beşinci çağırış Milli Məclisin buraxılması və 9 fevral 2020-ci ildə Azərbaycanda növbədənkənar parlament seçkilərinin təyin edilməsi haqqında sərəncam imzalamışdı [3, s.1].

2016-2020-ci illərdə cəmiyyət həyatının, demək olar ki, bütün sahələrini əhatə etmiş islahatlar sistemli xarakter daşımışdır. Eyni zamanda indi yaşadığımız dünyadakı yeni çağırışlar, cəmiyyətin gözləntiləri qanunvericilik orqanında da islahatların dərinləşməsini və parlamentin yenilənməsini şərtləndirirdi. Bütün bunlar, ən əsası, xalq tərəfindən gözlənilirdi.

Əslində növbəti parlament seçkiləri 2020-ci ilin noyabrında keçirilməli idi. Lakin bu deyilənlər növbədənkənar parlament seçkilərinin təşkilini aktuallaşdırdı. Bu, Azərbaycan tarixində ilk dəfə növbədənkənar parlament seçkiləri idi [3, s.1].

İstər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda parlament korpusunun vaxtından əvvəl buraxılması səbəblərinə müxtəlif yanaşmalara rast gəlinsə də, fikrimizcə, başlıca səbəb olaraq 5-ci çağırış Milli Məclisin fəaliyyətindən bütövlükdə cəmiyyətin gözləntilərini sonadək doğrulda bilməməsi, elə buna görə də yeni formalaşacaq parlamentin fəaliyyətini Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi islahatların templərinə müvafiq səviyyəyə çatdırmaq məqsədindən irəli gəldiyini söyləyənlər daha çoxdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bu seçkilərin fevral ayında keçirilməsinin əsas səbəbi islahatları dərinləşdirmək, vaxt itirmədən yeni tərkibdə Milli Məclisin işini təşkil etməkdir" [2, s.263].

***Seçkilərin fərqli xüsusiyyətləri.*** 2020-ci il 9 fevralda Milli Məclisə keçirilən növbədənkənar seçkilər ölkədə əhalinin bütün təbəqələri tərəfindən seçkilərə marağın xeyli dərəcədə yüksək olduğunu nümayiş etdirdi. Buna görə də 125 birmandatlı seçki dairəsi üzrə 1,3 mindən çox şəxsin namizəd kimi qeydə alınması, yəni bir deputat mandatı üçün ondan çox namizədin, həm də müxtəlif siyasi partiyaların nümayəndələrinin, eyni vaxtda öz namizədliyini irəli sürülmüş vətəndaşların sayının çoxalması da fərqli cəhətlər sırasında olmuşdur [4].

Sayca 6-cı çağırış olan Milli Məclisə seçkilərin əvvəlkilərlə müqayisədə fərqli olması gözlənilən idi. Belə fərqli cəhətlərin hər biri üzərində geniş dayanmayaraq, yalnız ən vacibləri barədə şərh verməklə kifayətlənirik. İlk diqqəti cəlb edən fərqli cəhət kimi Milli Məclisdə əksər mandatları qazanmış hakim Yeni Azərbaycan Partiyasının namizədlərinin siyahısının demək olar ki, yarıya qədər yenilənməsi idi. Hakim Yeni Azərbaycan Partiyası seçkilərə 123 namizəd irəli sürmüşdür ki, onlardan 45-i əvvəlki Milli Məclisin deputatı idi [7].

Müşahidəçilər bu dəyişiklikləri Azərbaycanda seçki qanunvericiliyinin təkmilədirilməsi prosesinin davamlı olması, ATƏT və digər beynəlxalq təşkilatların seçki prsesinin demokratikləşməsi və beynəlxalq standartlara tam olaraq uyğunlaşdırılması barədə təklif və tövsiyələrinin əksəriyyətinin nəzərə alınmasının nəticəsi kimi qiymətləndirirdilər [1, s.1].

Bu seçkilərin daha bir fərqli cəhəti hətta seçki kampaniyasına start veriləndək müvafiq dövlət strurkturlarında rəsmən qeydiyyata alınmamış bəzi müxalifətçi siyasi partiyaların və ictimai hərəkatların təmsilçilərinin də seçkilərdə iştirakına icazə verilməsi idi. Belə ki, qeydiyyatdan keçməmiş ReAl partiyası (Respublikaçı Alternativ) və analoji ictimai hərəkat olan NİDA timsalında qərbyönlü müxalifətin də seçkilərdə iştirakına icazə verilməsi diqqəti cəlb edirdi [4]. Bununla yanaşı, onların namizədlərinin televiziya debatlarında iştirak etməsi seçkilərə onsuz da yüksək olan marağı bir daha artırmışdı. Bununla belə, müxaifətdə olan siyasi partiyaların sırasında seçkilərdə iştirak etmək, seçkiləri boykot etmək kimi məsələlərə yanaşmada vahid mövqenin olmaması da müşahidə edilirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: *"Bütün siyasi qüvvələr seçkilərdə iştirak etdi. Sadəcə olaraq, özünü müxalifət adlandıran marginal qruplaşma seçkiləri sanki boykot etdi. Bu da gülməlidir. Çünki Azərbaycan xalqı bu rüsvayçı qurumu çoxdan boykot edib və 27 ildir ki, onlar tarixin zibilxanasındadırlar"* [2, s.268].

2005-ci ildən bəri, demək olar ki, bütün seçki kampaniyalarınının ənənəvi boykotçusu kimi tanınan millətçi Xalq Cəbhəsi Partiyasından fərqli olaraq, ölkənin ikinci əsas müxalifətçi partiyası sayılan Müsavat Partiyasının bu seçkilərdə iştirakı da yenilik idi [4]. Belə ki, aparıcı müxalifət partiyalarından olan Müsavatın 81 seçki dairəsi üzrə namizədləri qeydə alınmışdır [9].

Ümid Partiyası 75 seçki dairəsi üzrə namizədlərini irəli sürmüşdü. Onun rəhbəri İqbal Ağazadə 35 saylı 3-cü Xətai seçki dairəsindən namizədliyini irəli sürmüşdür Eyni zamanda müxalifətçi ReAl hərəkatının parlament seçkiləri üçün öz namizədlərini irəli sürməsi seçkilərin demokratik formada keçirilməsinin başlıca göstəricilərindən biri deməkdir. Ümumilikdə hərəkat 31 seçki dairəsi üzrə namizədlər irəli sürmüşdür [9].

Ümumilikdə bu seçki kampaniyasında 20-dən çox siyasi partiya YAP-ın namizədləri ilə rəqabət aparmışdır. Bu partiyaların əksəriyyətinin praktiki olaraq heç kimə məlum olmadığı da ilk növbədə elə seçicilərin özləri üçün sirr deyil. Amma hər bir halda ölkədəki əsas müxalifət partiyalarından nə qədər namizəd irəli sürülməsi barədə rəqəmlərin nəzərdən keçirilməsi və təhlili bəzi qənaətlər bildirməyə imkan verir.

Azərbaycanda növbədənkənar parlament seçkiləri 2020-ci il fevralın 9-da, ölkənin yuxarıdan aşağıya doğru islahatlar prosesinə cəlb olunduğu, kütləvi kadr dəyişikliklərin olduğu bir vaxtda

keçirildi. Prezident İlham Əliyevin islahatlar proqramının icrası gedişində yeni təyinatlar ölkədə hökumətin ən yüksək səviyyələrində, o cümlədən nazirlər kabinetində, prezident administrasiyasında və yerli icra orqanlarında həyata keçirilmişdir. Bütün bunlar yuxarıdan aşağıya doğru dəyişikliklər idi. 2020-ci ildəki Milli Məclisə seçkilərin gedişi bu dəyişikliklər sırasında ən mühümlərindən biri demək idi.

Qeyd edək ki, bu seçki kampaniyası həmişəkindən daha gərgin və maraqlı keçdiyini təsdiq edən faktlar çox olmuşdur. Belə ki, hər bir deputat yeri üçün 10 namizədin mübarizə aparması əvvəlki parlament seçkilərində müşahidə edilməmişdi [7]. Xüsusi olaraq diqqəti cəlb edən vacib yeniliklərdən biri bu oldu ki, namizədlərin əksəriyyəti yeni nəslin nümayəndələri idi.

***Seçkilərin müşahidəsi.*** Həm namizədlər, həm də seçicilər üçün hər cür şərait yaradılmışdır ki, bu da səsvermənin yüksək səviyyədə keçirilməsinə imkan verirdi. Seçkilərdən əvvəl və seçkilər zamanı yaradılan ab-hava seçici fəallığına və ümumi ruh yüksəkliyinə səbəb olmuşdu. Bu dəfə əvvəlki parlament seçkiləri ilə müqayisədə həm namizədlərin, həm də müşahidəçilərin sayı artmışdır. Azərbaycanda keçirilən səsverməni 58 ölkə və 59 təşkilatdan olan müşahidəçilər izləmiş, ümumilikdə 77 790 yerli müşahidəçidən 883-ü beynəlxalq müşahidəçi olmuşdur. Üstəlik, sonuncuların yarısı digər siyasi partiyaların nümayəndələri idi [7].

Yəni beynəlxalq strukturların, o cümlədən Azərbaycanı daim tənqid edənlərin müşahidəçi statusunda açıq və azad səsvermə üçün hər cür şərait yaradılmışdı. Heç kəsin qeydiyyatı dayandırılmamış, hətta radikal müxalifətin təmsilçilərinin də seçkilərdə iştirak etmək hüququ təmin edilmişdi.

Mərkəzi Seçki Komissiyası açıqladığı səsvermənin nəticələri əslində cəmiyyətin gözləntiləri ilə üst-üstə düşürdü. İlkin məlumatlara görə, Yeni Azərbaycan Partiyası yenidən səs çoxluğu - 125 yerlik parlamentdə 65-dən çox mandat qazanmış oldu [7].

Seçkilərdə iştirak etmək üçün ümumilikdə 20 siyasi partiyanın, təşəbbüs qruplarının nümayəndələri və özünü irəli sürmüş 1314 namizəd qeydə alınmışdır. Səsvermə prosesini 883 beynəlxalq müşahidəçi izləmişdir. Ölkənin Mərkəzi Seçki Komissiyası səsvermədə iştirakın 47,81% olduğunu bildirmişdir [6].

Səsvermə prosesinin demokratikliyi və şəffaflığı xarici müşahidəçilərin verdiyi qiymətlərlə təsdiqlənir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Biz seçkiləri müşahidə etmək üçün bir çox beynəlxalq təşkilatları, müşahidəçiləri dəvət etmişdik və onların mütləq əksəriyyəti seçkilərin həm hazırlıq dövrünü, həm kampaniya dövrünü, həm də seçkilər gününü çox müsbət qiymətləndirdilər. Demək olar ki, müşahidəçilərin mütləq əksəriyyəti seçkiləri demokratiyanın inkişafında növbəti uğurlu addım kimi qiymətləndirdilər və bəyan etdilər ki, Azərbaycan xalqı azad şəkildə öz seçki hüququndan istifadə etdi və seçkilərin nəticələri real mənzərəni əks etdirir" [2, s.265].

Britaniya missiyasının üzvləri jurnalistlərə bildirmişdilər ki, 800-dən çox xarici müşahidəçinin dəvət olunması Azərbaycanda keçiriləcək parlament seçkilərinə hərtərəfli hazırlığın göstəricisidir. Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) missiyasının rəhbəri Şerali Conon da eyni fikirdə olmuşdur. O qeyd etmişdir ki, yerli müşahidəçilərin sayı Azərbaycanda parlament seçkilərində səsvermənin şəffaflığından xəbər verir və həqiqətən də seçkilərə hazırlığın səviyyəsi çox yüksək olmuşdur [7].

İtaliyanın müşahidə missiyası da seçki qanunvericiliyinin bütün tələblərinə əməl olunmasından razı qalmışdır. Bakıda keçirilən mətbuat konfransında italyanlar seçki məntəqələrində qanunvericiliyə riayət olunmasına xüsusi diqqət yetirildiyini qeyd etmişlər. Onların qiymətləndirməsinə görə, seçki komissiyalarının üzvləri həm paytaxtdakı, həm də ətraf ərazilərdəki seçki məntəqələrində qanunlara riayət etmək üçün eyni dərəcədə məsuliyyət daşımışlar [7].

İlkin məlumatlara görə, prezident İlham Əliyevin rəhbərlik etdiyi hakim Yeni Azərbaycan Partiyası qalib gəlmişdir. Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və MDB ölkələrindən olan müşahidəçilər seçkiləri legitim və demokratik adlandırmış, müxalifət və avropalı müşahidəçilər isə real rəqabətin olmadığını bildirmişlər [6].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: *"Eyni zamanda, Azərbaycanda seçki prosesinə həmişə ikili standartlar prizmasından yanaşan və qeyri-obyektivliklə fərqlənən ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu və onun təsiri altında olan bəzi qurumlar bu dəfə də hansısa qüsurları qabardıb, onları böyük hadisə kimi təqdim etməyə çalışdılar. Heç bir seçki*

*qüsursuz olmur. Bu dəfə də qüsurlar olub və 4 dairənin nəticələrinin ləğv edilməsi onu göstərir ki, bu qüsurların olmaması üçün Azərbaycan özü maraqlıdır"* [2, s.266].

Təəssüf ki, bəzi beynlxalq təşkilatların təmsilçiləri tərəfindən yenə də qərəzkarlıq halları da olmuşdur. Belə ki, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) missiyasının üzvləri həmişə etdikləri kimi yenə də bildirmişlər ki, Azərbaycanda seçkilər "rəqabətsiz" keçirilmiş, seçki məntəqələrində pozuntular, seçicilərə təzyiq halları seçki prosesinin demokratikliyinə şübhələr yaradır. ATƏT-in qısamüddətli müşahidəçilər missiyasının xüsusi koordinatoru, ukraynalı deputat Artur Gerasimovun fikrincə, "namizədlərə seçkilərdə iştirak etmək imkanı verilsə də, lakin qalib gəlmək imkanı verilməmişdir" [6].

Bu cür reallıqdan uzaq olan bəyanatlar Azərbaycanda siyasi sabitliyin mövcudluğundan o qədər də məmnun qalmayan ATƏT-in siyasi müxalifətin əsassız iddialarını və yalanlarını olduğu kimi təkrarlamaqdan başqa bir şey deyil.

***Seçkilərin nəticələri.*** Seçkilərin nəticələri haqqında real faktlar, həqiqət Azərbaycan Mərkəzi Seçki Komissiyası (MSK) Milli Məclisə (parlamentə) seçkilərin ilkin nəticələri barədə məlumatda öz əksini tapmışdır. Məlumatda bildirilir ki, fevralın 9-da Azərbaycanda növbədənkənar parlament seçkilərində ümumilikdə qeydə alınmış 5 milyon 212 min 902 seçicidən 2 milyon 389 min 754 seçici səs vermədə iştirak etmişdir [8].

Parlament seçkiləri çərçivəsində 1314 namizəd qeydə alınmışdır. Onlardan 246 nəfəri 19 siyasi partiya, 1057 nəfəri fərdi şəkildə, 11 nəfəri isə təşəbbüs qrupları tərəfindən namizədliyini irəli sürülmüşdür. Namizədlərin 21 faizini qadınlar, 79 faizini kişilər təşkil etmişdir [8].

Seçki günü ölkənin 125 seçki dairəsində 5426 daimi seçki məntəqəsi fəaliyyət göstərmişdir. Səsvermə prosesini 883 beynəlxalq, 77 min 790 yerli müşahidəçi müşahidə etmişdir. 35 min yerli müşahidəçidən 152-si siyasi partiyaların nümayəndələri olmuşdur. Beynəlxalq müşahidəçilər 58 ölkəni və 59 təşkilatı təmsil etmişdir [8].

***Nəticə.*** 2020-ci il fevralın 9-da Azərbaycanda keçirilmiş növbədənkənar parlament seçkiləri potensial olaraq ölkənin siyasi tarixində ən mühüm seçkilərdən biri kimi artıq tarixə çevrilmişdir. Azərbaycanda altıncı çağırış Milli Məclisə növbədənkənar seçkilər keçirilmiş, ölkə vətəndaşları yeni parlamentin formalaşmasında fəal iştirak etmişlər. Milli məclisə seçkilər sakit şəraitdə, şəffaflıq və demokratiya şəraitində keçmiş və seçici fəallığı kifayət qədər yüksək olmuşdur.

Azərbaycanda son onillikdə keçirilən seçkilər beynəlxalq ictimaiyyət tərəfindən ciddi nəzarət altında olmaqla yanaşı vətəndaşların ictimai-siyasi proseslərdə fəal iştirakı göstəricilərindən biri olaraq, bu seçkilərə yanaşması, münasibəti və fəal iştirakı səviyyəsinin yüksəlməsi deməkdir. Bu baxımdan parlament seçkiləri hökumətin islahatlara ciddi yanaşdığını və ölkənin siyasi elitasının qüvvədə olan seçki qanunvericiliyinin tələblərinin nəzərə alınmasının təminatçısı kimi vacib demokratik dəyərin formalaşmasında iştirakının, bir növ, barometri olmuşdur.

## ƏDƏBİYYAT


1. Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib.10 mart 2020 // Xalq. 11 mart 2020. - s.1.
2. Əliyev İlham. İnkişaf - məqsədimizdir: on yeddinci kitab: fevral 2020-mart 2020. Azərnəşr, Bakı: - 2020. - 392 s.
3. Azərbaycan Respublikası növbədənkənar parlament seçkiləri. 9 fevral 2020. DTİHB Seçki müşahidə missiyası. Yekun Hesabat. Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, Varşava.17 iyul 2020. - 47 s.
4. Дульман Павел. В Азербайджане выбрали новый состав парламента. - https://rg.ru/2020/02/09/v-azerbajdzhane-vybrali-novyj-sostav-parlamenta.html [07.06.2024].
5. Граждане Азербайджана выбрали новый парламент - как это было. - https://sia.az/ru/news/election2020/788149.html [07.06.2024].
6. Легитимные, прозрачные, без реальной конкуренции: как прошли парламентские выборы в Азербайджане. - https://rtvi.com/stories/majlis-elections-2020/ [07.06.2024].

7. Мнение: Парламентские выборы 2020 года в Азербайджане и Грузии определят регион на ближайшее десятилетие. https://www.commonspace.eu/ru/mnenie-parlamentskie-vybory-2020-goda-v-azerbaydzhane-i-gruzii-opredelyat-region-na-blizhayshee [07.06.2024].
8. Новый парламент послужит активизации структурных реформ в Азербайджане. - https://dushanbe.mfa.gov.az/ru/news/3097/novyy-parlament-posluzhit-aktivizatsii-strukturnykh-reform-v-azerbaydzhane [07.06.2024].
9. Сотни оппозиционеров пошли на выборы в парламент Азербайджана. - https://haqqin.az/multimedia/167356 [07.06.2024].

**АЙСЕЛЬ ШАМИЛОВА**
*Сумгаитский государственный университет*

## ЗНАЧЕНИЕ ВЫБОРОВ В ПОВЫШЕНИИ АКТИВНОСТИ ГРАЖДАН В ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИХ ПРОЦЕССАХ

В статье говорится о вопросах, связанных с участием граждан во внеочередных выборах в Милли Меджлис, состоявшихся 9 февраля 2020 года, как одной из форм существенного повышения уровня активности граждан в общественно-политических процессах в стране. Азербайджанская Республика в 2016-2020 годах. Внеочередные парламентские выборы в Азербайджане прошли 9 февраля 2020 года, в то время, когда в стране проводились нисходящие реформы и происходили массовые кадровые перестановки. По прогнозам большинства политологов, выборы прошли в спокойной обстановке, в условиях прозрачности и демократии, а явка избирателей была достаточно высокой.

*Ключевые слова:* общественный, политический, активность, выборы, Милли Меджлис, внеочередной.

**AYSEL SHAMILOVA**
*Sumgayit State University*

## THE IMPORTANCE OF ELECTIONS IN INCREASING THE ACTIVITY OF CITIZENS IN SOCIAL AND POLITICAL PROCESSES

The article discusses issues related to the participation of citizens in the snap elections to the Milli Majlis held on February 9, 2020, as one of the forms of a significant increase in the level of citizen activity in socio-political processes in the country. The Republic of Azerbaijan in 2016-2020. Snap parliamentary elections in Azerbaijan were held on February 9, 2020, at a time when top-down reforms were being carried out in the country and massive personnel changes were taking place. According to the forecasts of most political scientists, the elections were held in a calm atmosphere, in conditions of transparency and democracy, and voter turnout was quite high.

*Keywords:* public, political, activity, elections, Milli Majlis, extraordinary.

*Məqalənin Redaksiyaya daxil olduğu tarix: 07 iyun 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Rəyçilər: t.e.d.Fazil Baxşəliyev, t.e.d. İbrahim Zeynalov.*